BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Sosial-siyasi elmlər seriyası 2010

# FƏLSƏFƏ

## VARLIQ HAQQINDA TƏLİMİN MAHİYYƏTİ

**V.M.KƏRİMOV**
***Bakı Dövlət Universiteti***
***vmkarimov@yahoo.com***

*Məqalədə varlıq, ona yaxın olan və bəzən onun sinonimləri kimi işlədilən mövcudluq, reallıq, gerçəklik anlayışları, onların münasibətləri araşdırılır, varlıq və reallıq anlayışlarının müxtəlif – dar və geniş mənaları da müəyyənləşdirilib təhlil olunur.*

Hər cür dünyagörüşün fundamental anlayışlarından olan "varlıq" kateqoriyası fəlsəfənin uzun sürən inkişafı gedişində işlənməklə daim fəlsəfi düşüncələrin diqqət mərkəzində olmuşdur. Fəlsəfəni maraqlandıran çoxlu dünyagörüşü məsələlərini öz ətrafında birləşdirən "insan-dünya" problemi, fəlsəfənin əsas məsələsi sayılan təfəkkürün varlığa münasibəti məsələsinin həlli ilə əlaqədar olaraq "varlıq" anlayışı və onunla bağlı olan varlıq problemi təşəkkül tapıb inkişaf etmiş, onun ətrafında müzakirələr və kəskin mübahisələr getmişdir.

Varlıq haqqında hələ mifoloji dünyagörüşündə irəli sürülən ilk təsəvvürlər sonralar qədim Şərq və Yunan fəlsəfəsində, özlüyündə varlıq deyil, onun konkret halları, təzahürləri (od, su, torpaq, hava, apeyron, atom və s.) fəlsəfi düşüncə obyekti olmuşdur. Varlığı onun konkret növləri ilə eyniləşdirməlzy bir kateqoriya kimi ayırıb fəlsəfi təhlil obyektinə çevirərək onu səciyyələndirməyə və məzmununu açmağa çalışan ilk filosof Qədim Yunanıstanda Eley məktəbinin nümayəndəsi Parmenid (≈ e.ə. 540-470) olmuşdur.

Varlıq probleminin fəlsəfi fikir tarixində qoyuluşu və həllinin öyrənilməsinə həsr etdiyimiz tədqiqatlarımızdan (11;12;13;14) göründüyü kimi, fəlsəfi düşüncələrin əbədi obyektlərindən olub ontologiyanın mərkəzi problemi kimi çıxış edən varlıq problemi müxtəlif dövrlərdə və ayrı-ayrı filosoflar tərəfindən özünəməxsus şəkildə həll olunmuşdur. Keçən əsrdə Qərb fəlsəfəsində J.P.Sartr (1905-1980), M.Xaydegger (1889-1976) və başqaları tərəfindən geniş tədqiq olunan varlıq problemi dialektik materializmin hakim dünyagörüşü olduğu sosializm dövründə respublikamızın da daxil olduğu keçmiş SSRİ-də bir növ unudulmuş, yalnız XX əsrin sonlarına doğru yenidən diqqəti cəlb etmiş, hətta fəlsəfə kursu üzrə dərs proqramlarına və dərsliklərə yol tapmışdır. Bununla da fəlsəfədə, xüsusilə ontologiyada fundamental fəlsəfi kateqoriya kimi varlıq problemi yenidən öz hüququnda bərpa olunmuş və yenidən tədqiqatçıların diqqətini cəlb etmişdir. Həm də tamamilə təbii olaraq onun əksi kimi "qeyri-varlıq" kateqoriyasına da diqqət artmış, son dərəcə geniş olan "varlıq" və "qeyri-varlıq" kateqoriyaları, varlıq problemi, onun qeyri-varlıq – heç nə ilə münasibəti problemi keçən əsrin sonlarına doğru xüsusilə kəskin şəkildə qarşıya çıxaraq, yenidən müzakirə olunmağa başlamışdır.

Bununla əlaqədar olaraq həlli vacib olan belə bir təbii sual meydana çıxır: varlıq probleminin mənası nədir, digər məsələlər içərisində onun nə kimi yeri vardır və nəyə görə o, daim müzakirə edilməkdədir? Fəlsəfi düşüncələr üçün əsas sayılan, son dərəcə ümumi və geniş olan varlıq anlayışının mənasını və əhəmiyyətini başa düşmək üçün onun insan həyatında nə kimi kökləri olduğunu, fəlsəfi biliklər içərisində yerini aydınlaşdırmaq lazımdır.

Ətraf aləmə nəzər salarkən, onun müxtəlif predmet və hadisələri ilə qarşılaşan, onlardan baş çıxarmağa çalışan insanlar öz fəaliyyətlərində adətən, şübhəsiz qəbul edilən müəyyən sadə və anlaşıqlı ilkin şərtlərə əsaslanmalı olmuşlar. Onlar içərisində birincisi və universal olanı belə bir təbii inamdan ibarətdir ki, insanı əhatə edən dünya vardır, müəyyən məkan və zamanda mövcuddur, nə kimi dəyişikliklərə uğramasından asılı olmayaraq o, nisbi stabil tam kimi saxlanır.

Varlıq haqqında düşünən ilk filosoflar dünyanın müəyyən məkanda və zamanda, konkret olaraq "burada" və "indi" mövcud olduğunu qəbul etməli olmuşlar. Lakin varlıq haqqında düşüncələrin göstərdiyi kimi, bununla kifayətlənmək olmaz. Belə qənaətə gəlmək təbiidir ki, dünya yalnız "burada" və "indi" deyil, hər yerdə və həmişə mövcud olmuşdur və olacaqdır, yəni o, məkan etibarilə sonsuz və zaman etibarilə əbədidir. Həm də qeyd edilməlidir ki, varlıq haqqında bəhs edən filosoflar müxtəlif mövqedən çıxış etmişlər. Bəzi filosoflara görə, dünya hər yerdə mövcud olub əbədidir, yəni həmişə mövcud olmuşdur, vardır və olacaqdır. Başqaları isə iddia edirdilər ki, dünya insandan əvvəl mövcud olmuşdur, indi də mövcuddur və sonra da mövcud olacaqdır, lakin o, məkanda məhduddur, zaman etibarilə də əbədi deyildir, yəni onun əvvəli və sonu vardır. Dünyaya fəlsəfi baxışların inkişafı gedişində tam və hüdudsuz dünyanın mövcudluğu haqqında fikir sonralar dünyanın keçici, məhdud olan ayrı-ayrı varlıqlarının əbədi, keçici olmayanın mövcudluğu, varlığı haqqında ideya ilə birləşdi. Əbədi dünyanın keçici olmayan, yaxud heç olmazsa, insanla, konkret şeylərlə müqayisədə çox uzun müddətli mövcudluğu haqqında ideya öz növbəsində belə bir məsələnin qoyulmasına gətirib çıxartdı ki, keçici, sonlu olduğu şübhəsiz olan şeylər və insan bədəni belə əbədi və sonsuz olan mövcudluqla, varlıqla necə əlaqəlidir. Varlığa aid olan bu kimi sualların qoyulması və onlara cavab axtarılması gedişində fəlsəfi dünyagörüşü üçün mühüm əhəmiyyət kəsb edən varlıq problemi yaranıb geniş müzakirə olunmağa başladı.

Varlığın, yaxud nəyinsə əksi **heç nə** yoxluqdur. Varlığın bütün konkret formaları, təzahürləri məsələn, ulduzlar, planetlər, bitkilər, heyvanlar və s. sanki qeyri-varlıqdan ("heçdən") yaranır və aktual, Hegelin ifadəsincə, **nəqd** varlığa çevrilirlər. Lakin mövcud olan varlığın ömrü (mövcudluğu) nə qədər uzun sürsə də onun sonu çatır və varlıq formasını itirərək qeyri-varlığa "qayıdır", yəni özünün əksi olan yoxluğa (heçə) çevrilir. Bu zaman "varlıq" və "qeyri-varlıq" dialektik vəhdətdə mövcud olur. Bu vəhdət ondan ibarətdir ki, qeyri-varlığa keçilməsi varlığın mütləq, izsiz yox olması deyil, ancaq sonsuz və əbədi mövcud olan materiyanın bir varlıq formasından başqasına keçilməsi, yəni materiya varlığının yeni formasının təşəkkülü, məhz yeni varlığın yaranmasıdır.

Deyilənlər belə düşünməyə əsas verir ki, fəlsəfədə "varlıq" və "qeyri-varlıq" ("yoxluq") anlayışları mütləq mənada başa düşülərək bir-birinə qarşı qoyulmamalıdır. Belə ki, bu gün var olan hər hansı konkret şey ("varlıq") sabah yox olaraq heçə çevrilə bilər və əksinə, bu gün yox olan nəsə bir müddətdən sonra var ("varlıq") ola bilər. Bu da göstərir ki, varlıq və qeyri-varlıq mütləq deyil, nisbi mənada işlədilərək bir-birinə

qarşı qoyulur. Əslində varlıq kimi "qeyri-varlıq" da mövcuddur, o, "qeyri-varlığın" varlığıdır. Bu mənada dünya "varlıq" və "qeyri-varlığın" vəhdəti kimi mövcuddur. Varlıq şeyin, bu və ya başqa nəyinsə olması, qeyri-varlıq isə olmamasıdır. Hər bir obyektiv proses özünə həm varlığı, həm də qeyri-varlığı daxil edir. Varlıq və qeyri-varlığın münasibətində onlar əksliklər kimi bir-birini istisna edir. Lakin varlıq və qeyri-varlığın əksliyi onların əlaqəsinin daha çox nəzərə çarpan tərəfidir. Onların daha mühüm olan ikinci momenti isə qarşılıqlı nüfuz etmələri, bir-birinə keçmələridir. Bu da göstərir ki, eyni bir obyekt dialektik əksliklər olan varlıq və qeyri-varlığın ziddiyyətli vəhdətidir.

Bu öz ifadəsini hələ qədim fəlsəfədə formulə edilən nəyinsə heçdən yaranmasının və heçə çevrilərək yox olmasının qeyri-mümkünlüyü prinsipində tapmışdı. Həmin prinsipi qısaca belə ifadə etmək olar: "Heçdən heç nə olmur (yaranmır) və heçə çevrilərək yox olmur". Əvvəlcə insanların praktik əmək fəaliyyətinin ümumiləşdirilməsi kimi meydana çıxan və sonralar elmə daxil olaraq onun məhək daşlarından birinə və materialist dünyagörüşünün əsasına çevrilən həmin prinsipə görə, əvvəla, istənilən maddi obyekt, nəsə başqa maddı obyektdən, "nədənsə" əmələ gələ bilər və ikincisi, istənilən maddi obyekt, "nəsə" izsiz yox olmayaraq başqasının, yaxud bir sıra başqa maddi obyektlərin əmələ gəlməsi ilə nəticələnir. Bunu ümumi şəkildə qeyd etdiyimiz kimi, belə ifadə etmək olar: "Heç nə heçdən yaranmır və heçə çevrilərək yox olmur". Bu prinsip baxımından maddi obyektlərin əmələ gəlməsi və məhvinə onların dəyişməsinin, inkişafının momenti kimi baxılır. Başqasına çevrilən maddi obyekt əvvəlki obyekt (varlıq) kimi mövcud olmaqdan qalır və əvvəlkinin qeyri-varlığına çevrilərək, yeni maddi obyekt (varlıq) kimi mövcud olmağa başlayır. Buradan aydın olur ki, istənilən maddi obyekt ("nə isə") öz dəyişməsi, çevrilməsi prosesində həm "varlığa", həm də "qeyri-varlığa" (öz varlığının yoxluğuna) malik olur. Deməli, maddi obyektlərin (varlığın) istənilən dəyişməsi, çevrilməsi, inkişafı prosesi özünə həm məhv olmanı ("yoxluğu"), həm də yaranmanı ("varlığı") daxil edərək dialektik əksliklərin vəhdəti kimi çıxış edir. Bu göstərir ki, verilmiş konkret şeyin ("varlığın") məhv olması prosesinə onun "qeyri-varlığa", "heçə" çevrilməsi, "qeyri-varlıqdan", "nədənsə" əmələ gəlməsi prosesinə isə "varlığa", "nəyəsə" keçməsi prosesinin tərəfi kimi baxmaq olar.

Ümumiyyətlə, "varlıq" anlayışı ilə yanaşı "heç nə", "qeyri-varlıq" ("yoxluq") anlayışları olmadan inkişafı, dəyişikliyi, təşəkkülü müəyyən etmək olmaz. Varlıqdan yoxluğa ("heçə") keçilməsi maddi obyektlərin dəyişməsini, inkişafını ifadə edən obyektiv prosesdir. Həmin anlayışlar gələcəyə aiddir. İndi mövcud olan maddi obyektlərin dəyişməsi, inkişafı prosesində özünün yoxluğu ilə səciyyələnən "qeyri-varlıq" ancaq hələlik "heç nə"dir, lakin "nəyəsə" ("varlığa") çevrilə bilər. Beləliklə, "qeyri-varlıq"dan "varlığ"a, "heç nə"dən "nəyəsə" keçilməsi maddi obyektlərin inkişafının digər tərəfini təşkil edən obyektiv prosesdir. Bu göstərir ki, biz fikrimizdə maddi obyektlərin inkişafını, çevrilməsi prosesini yalnız "varlıq" və "nə isə" anlayışlarını "qeyri-varlıq" ("yoxluq") və "heç nə" anlayışlarına və əksinə keçilməsi vasitəsilə əks etdirə bilərik.

Qeyd etmək lazımdır ki, "qeyri-varlıq" və "heç nə" anlayışları ilə bəzən materiyanın bizə məlum olmayan halını ifadə edirlər. Məsələn, "boşluq" anlayışı belədir. Məlumdur ki, materiyanın olmaması kimi başa düşülən boşluq yoxdur. Materiyanın növlərindən biri kimi "sahə" anlayışı işlənilənə qədər onu materiyanın olmadığı xalis boşluq, mütləq "vakuum" kimi başa düşürdülər. Fizikada sahə anlayışı işləndikdən sonra məlum oldu ki, boşluq adlandırılan sahə materiyanın deyil, onun maddə

növünün olmadığı xüsusi halıdır. Hazırda "vakuum" kimi işlədilən boşluq anlayışı mütləq mənada, yəni materiyanın heç bir növünün olmaması mənasında deyil, ancaq nisbi mənada, yəni materiyanın hansısa növünün olmaması mənasında işlədilə bilər (18, 131-162).

Müasir elmdə "qeyri-varlıq" və "heç nə" anlayışları mütləq mənada deyil, hansısa varlığın olmadığı nisbi mənada işlədilir. Bəzi fiziklər və astrofiziklər Kainatda müəyyən zaman müddətində "heç nə"dən hansısa miqdarda maddə yarandığını söylədikdə bununla onu demək istəyirlər ki, materiyanın hələlik müəyyənləşdirilməmiş hansısa növündən maddə əmələ gəlmişdir. Varlıq kimi qəbul olunan maddənin əmələ gəldiyi həmin halı biz "qeyri-varlıq", "heç nə" kimi işlətsək də, əslində o, mütləq mənada "heç nə", "qeyri-varlıq" olmayıb həmin "qeyri-varlığın" özünə məxsus xüsusi "varlığıdır". Bəzən fizikada maddənin mütləq boşluq, "heç nə" kimi başa düşülən vakuumdan əmələ gəlməsi fikrinə rast gəlinir. Burada işlədilən vakuum mütləq "qeyri-varlıq", "heç nə" deyil, materiyanın – müəyyən maddənin olmadığı halıdır. Məsələn, elektromaqnit sahəsi vakuumu dedikdə onun fotonların olmadığı halını nəzərdə tuturlar.

Deyilənlərə uyğun olaraq L.A.Kaqan varlıq anlayışının çox geniş olub hələ ona çevrilməmiş olan, habelə varlıq formasını itirərək çevrildiyi "qeyri-varlığı" da əhatə etdiyini bildirir: "Öz inkişafında sonsuz və məzmununa görə tükənməz olan varlıq bütün gerçək və mümkün olanı, o cümlədən öz əksliyini – qeyri-varlığı (qeyri-varlığın varlığını) əhatə edir... Qeyri-varlıq ümumi Varlığın momenti, onun hallarından biri kimi mövcud olub Varlığın təşəkkülü prosesində doğulur... Qeyri-varlıq törəmədir və bu mənada... şərti, nisbidir. Bu, ümumiyyətlə, varlığın olmaması deyil, keyfiyyətcə müəyyən, konkret, reallaşmış varlığın olmadığı, onun inkişafının bir səviyyəsindən başqasına keçid forması, verilmiş situasiyada hələ təşəkkül tapmamış, formalaşmamış varlıqönüdür" (16, 57-58).

Varlıq və qeyri-varlığın münasibətinə Hegelin dialektikası mövqeyindən yanaşan M.S.Koqan bildirir ki, Hegelin inkişafın "tezis-antitezis-sintezis" kimi əksliklərin bir-birini əvəzləməsi prosesi olması haqqında təlimi varlıq və qeyri-varlığın münasibətinə bir-birini istisna edən halların abstrakt, statik kənarlaşdırılması kimi deyil, varlığın özünün qeyri-varlığa keçməsi, sonra isə yeni varlığın özünün çıxış formasına, lakin onun qeyri-varlığı ilə zənginləşmiş halda qayıdılması ilə inkar olunması sayəsində yeni varlığın doğulmasında təzahür edən inkişaf prosesinin dialektikası kimi baxılması zərurətinə gətirib çıxartdı; bəhs etdiyimiz məsələyə tətbiq edildikdə inkarı inkar qanununun real mənası belədir. Buradan aydın olur ki, təbii-elmi baxımdan mütləq, yəni varlığın əmələ gəlməsi üçün imkan, əsas təşkil etməyən və varlıq məhv olduqdan sonra onun keçmədiyi qeyri-varlıq həqiqətən yoxdur və ola da bilməz – bunu materiyanın saxlanması qanunu deyir. Sadəlövh mifoloji təsəvvürlərdən, dünyanın Allah tərəfindən heçdən yaradılması haqqında dini təsəvvürlərdən fərqli olaraq elm varlığın yaradılmamasından, onun əbədiliyindən və ancaq varlığın bir formasından başqasına çevrilməsindən bəhs edir; deməli, **mütləq qeyri-varlıq** yoxdur və ola da bilməz, ancaq **nisbi qeyri-varlıq**, yəni varlığın hələ yaranmamış, yaxud artıq yox olmuş müəyyən konkret varlığın, yəni **nəqd varlığın** olmaması vardır (15,55).

Varlığın əksi heçlik yaxud yoxluq olduğundan varlıq haqqında təsəvvür heçlik haqqında təsəvvürlə paralel formalaşmışdır. Məsələn, ilk dəfə varlığı bir kateqoriya kimi ayırıb fəlsəfi təhlil obyektinə çevirən Parmenidə görə "varlıq olandır, heçlik isə olmayan". Həm də olmayan şeyin mövcudluğu heç vaxt sübut olunmayacaqdır. "Qeyri-varlıq görünməzdir, bilavasitə verilməmişdir, o, həmişə varlığın arxasında gizlənir"

(6,3). Beləliklə, Parmenid heçliyə (qeyri-varlığa) pozitiv məna verirdi. Demokrit, Platon, Aristotel də heçliyə mühüm yer verərək ona varlığın inkarı, əksi kimi baxmışlar. Demokritdə o, boşluq kimi anlaşılmışdır. Varlığa dialektik baxışı irəli sürən Heraklit bildirirdi ki, eyni bir şey həm mövcuddur, həm də mövcud deyildir.

Bu, hər şeyin əbədi hərəkət və dəyişmədə olmasından irəli gəlir. Özünün ayrılmaz xassəsi, mövcudluq üsulu olan hərəkət prosesində şey dəyişir, yəni eyni anda həm özünün eyni olur, həm də olmur, çünki hərəkət prosesində onda müəyyən dəyişikliklər baş verir: nəsə aradan qalxaraq yox olur və qeyri-varlığa keçir, nəsə əmələ gəlir, bərqərar olur. Beləliklə, dəyişmə bir-birinə əks olan əks meyllərin, öz aralarında üzvi surətdə bağlı olan iki momentin – varlıq və qeyri-varlığın vəhdətidir.Varlıq və qeyri-varlığın münasibəti məsələsində Parmenid və Heraklit bir-birinə əks olan iki konsepsiyanı irəli sürmüşdülər. Parmenid varlıq və qeyri-varlığı bir-birinə qarşı qoyaraq bildirirdi ki, "varlıq vardır, qeyri-varlıq isə yoxdur". Heraklit isə varlıq və qeyri-varlığın vəhdət təşkil etdiyini bildirirdi: "Eyni bir şey mövcuddur və mövcud deyildir".Varlıq və qeyri-varlığın əlaqəsini, bir-birinə keçməsini şeyin yaranması və məhv olması nümunəsində nümayiş etdirmək olar. Dəyişməz, mütləq surətdə özünün eyni olub, belə də qalan əbədi varlıq yoxdur. Varlıq ancaq daimi yaranma, inkişaf və məhv olma, qeyri-varlıqdan varlığa və yenidən qeyri-varlığa keçmə halında varlıqdır. Hər bir təşəkkül tapan, tam reallaşmış varlıq eyni zamanda məhv olmanın, yəni heçliyin astanasıdır. Yaranma prosesi eyni vaxtda həm varlığı, həm də qeyri-varlığı özünə daxil edir. Doğrudan da, bir halda ki, şey artıq yaranır, onda ona varlıq xasdır. Lakin şey yaranıb başa çatmayaraq hələ əmələ gəlmə prosesində olduğundan ona qeyri-varlıq da xasdır. Əmələ gəlməsi prosesinədək şey qeyri-varlıq halında olmuşdur, əmələ gəldikdən sonra artıq varlıq halındadır, yaranma anında isə eyni vaxtda həm varlıq, həm də qeyri-varlıq halında olub, onların vəhdətində mövcuddur. Bu anda o, qeyri-varlıq halından varlıq halına keçir. Yoxolma prosesində isə əksinə, şey varlıqdan qeyri-varlığa keçir və bu keçid halında da varlıq və qeyri-varlıq eyni vaxtda mövcud olur. Analoji situasiya keçid halı ilə səciyyələnən bütün proseslərdə müşahidə olunur. Şey inkişaf edərək qeyri-varlıqdan varlığa keçir və bu və ya başqa keyfiyyət kəsb edir, varlıqdan qeyri-varlığa keçərkən onları itirir. Bu mənada varlıq və qeyri-varlığın eyniyyəti haqqında da danışmaq olar (23, 110).

Qeyd etmək lazımdır ki, varlıq və qeyri-varlıq anlayışlarının münasibətinin aydınlaşdırılması ilə bağlı olaraq problemin tədqiqində dərinləşməyə yönəldilmiş və heç olmazsa, buna görə diqqət çəkən və düşünməyə sövq edən maraqlı mülahizələr söylənir. Bu cəhətdən Kazan şəhərindən olan filosof N.M.Soloduxonun "Fəlsəfə məsələləri" jurnalında (№6, 2001-ci il) dərc olunmuş "Varlıq və qeyri-varlıq dünyanın son əsasları kimi" adlı məqalədə söylədikləri maraqlıdır.

Onun göstərdiyi kimi, bəzi filosoflara və fəlsəfi təlimlərə görə, bütün imkan halında mövcud olmuşları, gerçəklikdə mövcud olanları və gələcəkdə mövcud ola bilənləri əhatə edən dünya varlıq və qeyri-varlığın xüsusi birləşməsindən başqa bir şey deyildir. Varlıq və qeyri-varlığın münasibəti məsələsində başlıca fəlsəfi problem varlıq və qeyri-varlıqdan hansının ilkin, əvvəlinci olması, yaxud birinciliyi məsələsidir. Bu məsələnin həllində onlardan hansının birinci, əsas götürülməsi ilə bağlı olaraq varlıq fəlsəfəsi və qeyri-varlıq fəlsəfəsi meydana çıxır (24, 177). E.ə. V əsrdə yunan filosofu Melissin "heçdən heç nə yaranmır" müddəasına və xüsusilə ancaq varlıq vardır, qeyri-varlıq isə mövcud deyil kimi ifadə olunan və ilk dəfə Eleyli Parmenid tərəfindən aydın şəkildə irəli sürülən varlıq fəlsəfəsinə görə, dünya ya ideal (mənəvi)

ya da maddi formada həmişə mövcud olmuşdur. Deməli, varlıq əvvəldir, birinci və mütləqdir, qeyri-varlıq isə ikincidir və nisbidir. Bu mövqeyə (paradiqmaya) görə "Heçdən nəsə əmələ gəlmir".

Qeyri-varlıq fəlsəfəsi mövqeyindən çıxış edən bəzi filosoflara görə isə dünyanın başlanğıcı və əsası qeyri-varlıqdır və o, törəmə, ikinci olan varlıqdan fərqli olaraq mütləqdir. Bu baxışın ümumi formulu belədir: "Hər şey heçdəndir". Bu baxış çərçivəsində ifrat mövqeyə nümunə kimi "mövcud olanlardan heç nə mövcud deyildir" – deyən qədim yunan sofist filosofu Qorgini (e.ə. 483-373) göstərmək olar. Həmin mövqedən çıxış edən alman ekzistensialisti M.Xaydegger heçə insan varlığının əsası kimi baxaraq alman filosofları Leybnis və Şellingin ardınca "Nəyə görə heç nə deyil, varlıq mövcuddur?" sualını fəlsəfənin (metafizikanın) ilk məsələsi adlandırır (10,10). Yuxarıda adını çəkdiyimiz rus filosofu A.N.Çanışev də varlığı qeyri-varlığın qeyri-varlığı kimi şərh edir.

Fəlsəfə tarixində varlıq və qeyri-varlığın münasibəti məsələsinin birmənalı olmayan həllinə də rast gəlinir. Məsələn, hələ qədim Çində daosizm təlimində deyilirdi ki, "varlıq və qeyri-varlıq bir-birini doğurur", lakin orada, hər halda, varlıq qeyri-varlığı doğurur" fikrinə də rast gəlinir (24, 178). Bəs görəsən, varlıq dünyanın hər şeyin əmələ gəldiyi və məhv olaraq çevrildiyi substansional, yəni öz varlığı üçün heç nəyə möhtac olmayan əsası ola bilərmi? Vizantiya ilahiyyatçı filosofu İohan Damaskinin VIII əsrdə verdiyi tərifə görə "Substansiya özü mövcud olandır və özünün mövcudluğu üçün hər hansı başqasına möhtac deyildir". Varlıq substansiyasını bir çox filosoflar, məsələn, "causa-sui" (öz-özünün səbəbi olmaq) tezisini irəli sürən holland filosofu B.Spinoza da belə başa düşmüşdür. Yəni onlar ilk substansiya kimi götürdükləri istər ruhu (mənəvini), istərsə də materiyanı ilk varlıq kimi qəbul edib ondan çıxış etmişlər. Buna əsaslanan N.M.Soloduxo belə bir sual verir: dünyanın varlığı, substansiyası özü-özünün səbəbi ola bilərmi? Onun fikrincə, bu suala cavab verməli olan varlıq fəlsəfəsi çıxılmaz dairəyə düşür, çünki tam tamın əsası kimi çıxış edir ki, bunun necə ola bilməsi cavabsız qalır.

Tam öz hissələrinin mövcudluğunu müəyyən edir, məsələn, materiya tam kimi özünün müxtəlif səviyyələrini, müxtəlif formalarını, növlərini doğurur və bundan ötrü səbəblər və əsaslar tələb olunmur. Bəs bir tam kimi materiyanın özü haradan əmələ gəlmişdir? Bu sual cavabsız qalır və deməli, əbədi və sonsuz materiya, varlıq substansiyası kimi materiya haqqında tezis sübutsuz qəbul olunan postulativ xarakter daşıyır.

Mütləq və əbədi substansiya barədə oxşar postulat fəlsəfədə də, dində də vardır Ruhi (mənəvi), ilahi substansiyanın bütün təbii – insan formalarının, maddələrin və ruhların mənbəyi və səbəbi olduğunu qəbul edən idealizm və din üçün də – "İlahi başlanğıcın özü haradandır? İlahi ruh kim tərəfindən, yaxud nədən törəmişdir?" sualı cavabsız qalır, yəni ilahi varlıq haqqında tezis də postulativ xarakter daşıyır. Bütün bunlardan sonra N.M.Soloduxo belə nəticəyə gəlir: əgər ümumiləşmiş şəkildə desək, həm maddi, həm də mənəvi substansiya konkret predmetlərin və hadisələrin varlıq substratı kimi çıxış edə bilsə, varlıq subtratının nədən irəli gəldiyi, nə ilə şərtləndiyi məsələsinə varlıq fəlsəfəsi cavab vermir; bu, onun hüdudlarından kənarda qalır.

N.M.Soloduxonun fikrincə, bütün şeylərin, bütövlükdə dünyanın mövcudluğunun başlanğıcını və ilk əsasını onda axtarmaq lazımdır ki, nə - həqiqətən şərtsizdir və özünün əsasını tələb etmir. Nə - özü üçün kifayət ola bilər, bütün başqalarının real mövcudluğunun mənbəyi və şərti ola bilər. Bu, mövcud olan nəsə ola bilməz, çünki mövcud olan nəsə başqası ilə şərtlənmişdir. Deməli, yalnız mövcud olan nəyi isə şərt-

ləndirən, lakin özü heç nə ilə şərtlənməyən qeyri-varlıqdır, onun, yəni heç nəyin olmaması üçün heç nə lazım deyildir. Buna görə də, məhz Heç nə, Qeyri-Varlıq əvvəldən özü üçün heç nə tələb etməyən həqiqi "causa sui"-dir. Buna görə də, məhz Heç nə, Qeyri-Varlıq dünyanın həqiqi substansiyası ola, bütün real mövcud olanların ilk səbəbi və əsası kimi çıxış edə bilər (24,179). Həm də həmin qeyri-müəyyən "heç nə" varlığın bir varlıq kimi məhv olub, öz varlığından çıxaraq keçdiyi müəyyən qeyri-varlıq deyildir. Varlıqdan əvvəlki çıxış, qeyri-varlığın ontoloji qeyri-müəyyənliyi, hər şeydən əvvəl, bunda təzahür edir ki, o, nə materiya, nə obyektiv ruh, nə də subyektiv şüur olmayıb, qeyri-müəyyən heçdir. Hər cür varlıq məhz öz mövcudluğunda heç bir kənar səbəblə şərtlənməyən, özü-özünün səbəbi olan qeyri-varlıqdan, heçdən əmələ gəlmişdir və öz inkişafında yenidən, lakin artıq müəyyən qeyri-varlığa keçir. Bu, sonuncu qeyri-varlıq şərtidir, yəni o, varlığın qeyri-varlığıdır. Bunu əyani olaraq belə göstərmək olar:

| MÜƏYYƏN OLMAYAN | | | | MÜƏYYƏN |
|---|---|---|---|---|
| QEYRİ-VARLIQ | → | VARLIQ | → | QEYRİ-VARLIQ |

Varlıq haqqında fəlsəfi fikrin inkişafı tarixindən gətirilib təhlil olunan və ona müasir ədəbiyyatda mövcud olan baxışların nəzərdən keçirilməsi göstərir ki, həmin məsələdə materializm və idealizm kimi bir-birinə əks olan iki əsas mövqe olmuşdur və indi də vardır.

Materializm varlığa təbiətin, materiyanın və onun mövcudluq, varlıq formalarının, xassələrinin varlığı kimi baxmış, idealizm isə varlığı təbiətdən ayıraraq ona müstəqil mahiyyət kimi, obyektiv aləmin başlanğıcı olan xalis, özlüyündə varlıq kimi baxmışdır. Halbuki mücərrəd, materiyadan əvvəl və ondan asılı olmayan "xalis varlıq", "özündə varlıq" anlayışları heç nəyin uyğun gəlmədiyi boş abstraksiyalar olub, məzmunsuzdur. Həmin abstraksiyalarda maddi və ideal, materiya və ruh fərqləndirilmir. Həm də nəzərə alınmalıdır ki, öz-özlüyündə varlığın obyektivliyinin, şüurdan asılı olmamasının qəbul edilməsi hələ heç də filosofun materialist olması demək deyildir, çünki obyektiv idealizm, neotomizm, din fəlsəfəsi də belə hesab edir; halbuki varlıq materiyadan əvvəl gəlmir. Varlığa, obyektiv reallıq olana materiyadan xaricdə baxıla bilmədiyi kimi, materiyaya da varlığa, yaxud onun konkret bir növünə münasibətdən kənarda baxıla bilməz. Varlığı materialistcəsinə anlamağın onu materiyadan ayıran idealistcəsinə anlamağa prinsipial əksliyi də bundadır.

* * *

Yeri gəlmişkən dində və fəlsəfədə geniş işlədilən və o qədər də müəyyən olunmamış "qeyri-varlıq" haqqında bəzi mülahizəmizi bildirməyi vacib sayırıq.

Məlumdur ki, din və dinçi filosoflar dünyanın, varlığın Allah tərəfindən yaradıldığını bildirirlər. Məsələn, İslam dininin müqəddəs kitabı olan "Qurani-Kərim"də deyilir: "Allah dedi Ol!" Dünya "heçdən" var oldu. Əl-Bəqərə surəsinin 117-ci, Əl-Ənam surəsinin 101-ci ayələrində deyilir: "Göyləri və yeri yoxdan var edən Odur". Ət-Talaq surəsinin 12-ci ayəsində deyilir: "Yeddi göyü, bir o qədər də yeri yaradan Allahdır ". Xristianlığın müqəddəs kitabı "İncildə" də bildirilir ki, dünyanı Allah altı gün ərzində heçdən yaratmışdır. Lakin dünyəvi elmlə, xüsusilə materiya və enerjinin saxlanması və çevrilməsi qanunu və dini fəlsəfə ilə tanış olan filosoflara görə, "heç nə" dedikdə mütləq mənada "heç", qeyri-varlıq deyil, Allah tərəfindən tənzimlənən maddi xaos başa düşülməlidir.

Müasir elmi terminologiyada "heç nə" dedikdə materiyanın əsas növlərindən

olan maddənin olmadığı "vakuum" başa düşülür. XIX əsr fizikasında materiyanın yeganə növü olub onunla eyniləşdirilən maddənin olmadığı mütləq "boşluq" kimi başa düşülən "vakuum" müasir elmi təsəvvürlərə görə obyektiv reallıq (maddi varlıq) olub, materiyanın müəyyən şəraitdə maddə hissəciklərini doğura bilən spesifik formasıdır. Müasir kvant fizikasına görə, "vakuum" onda gedən və hələlik səbəbi, təbiəti o qədər də aydın olmayan elə "həyəcanlanmış hala" gələ bilər ki, bu zaman onda materiyanın sahə növü yarana və onun sıxlaşması, qatılaşması, təmərküzləşməsi nəticəsində maddə hissəcikləri törəyə bilər. Bu da belə güman etməyə əsas verir ki, varlığın, Kainatın (düzgün olmayaraq onunla eyniləşdirilən Metaqalaktikanın) yarandığı heçnə dedikdə varlığın yarandığı (yaxud yaradıldığı) "heç nə" deyil, varlığa əks olan "heç nə", yəni heçin varlığı nəzərdə tutulur: varlıq heçdən yaranır və özünün varlıq formasını itirərək özünün əksi olan qeyri-varlığa keçir. Bu sonuncunun varlığı varlığın deyil, qeyri-varlığın varlığıdır.

Allahın varlığı (Kainatı) yaratdığı "heçnə" deyərkən həmin "qeyri-varlıq" nəzərdə tutulur. Bütün varlıqlar, var olan hər şey Ondan törəmişlər və Ona qayıdacaqlar – fikrindəki "O" ilə məhz varlığın qeyd etdiyimiz ilkin "qeyri-varlıq" halı nəzərdə tutulmuşdur. Varlıq deyərkən nəzərdə tutulan Kainatın "Ənam" surəsinin 101-ci və "Talaq" surəsinin 12-ci ayələrində deyildiyi kimi, dünyanın – Göy və Yerin "heçdən" yaranması müasir elm baxımından onun maddə hissəciklərinin olmadığı "qeyri-varlıq" halındakı varlığından spontan surətdə – öz-özünə, səbəbi məlum olmayan təsadüfi fluktuasiyaların – kənara sapmaların (çıxmaların) baş verdiyi vakuumdan yaranması, doğulması deməkdir. Daim fluktuasiyalara məruz qalan vakuum özlüyündə çox qısa zaman müddətində doğulan və ani məhv olan, yəni mütləq surətdə yox olmayaraq başqa keyfiyyət halına keçən, qarşılıqlı təsirlərdə adi real hissəciklər kimi iştirak edən virtual hissəcikləri təmsil edir.

Beləliklə, varlıq anlayışı ilə yanaşı dini və fəlsəfi ədəbiyyatda diqqət mərkəzində olub daim müzakirə olunan "qeyri-varlıq" ("heç nə") anlayışı haqqında heç də qəti saymadığımız, lakin düşünməyə vadar edən yuxarıdakı mülahizələrimizdən aşağıdakı nəticəyə gəlmək olar: varlığın yarandığı yaxud dünya dinlərinə görə Allah tərəfindən yaradılmış olduğu "heç nə" müasir elmə görə maddi dünyanın maddə növü kimi həqiqi real imkan halında olan həyəcanlanmış "vakuumdur", yəni o heç də əslində mövcud olmayan mütləq "heç nə" deyildir.

Qeyri-varlıq haqqında deyilənlər göstərir ki, o, bizim adət etdiyimiz anlayışlara sığışmayan, hamının qəbul etdiyi varlığa çevrilməmiş, özlüyündə, hələ imkan halında olan qeyri-varlıqdır. Həmin qeyri-varlıq indiyədək anladığımız mütləq mənada "qeyri-varlıq", yoxluq, "heçnə" olmayıb varlığın hələ imkan halındakı, ona çevrilməmiş xüsusi halının varlığıdır. Bu mənada Qurani-Kərimdə dünyanı (varlığı) Allah heçdən var etmişdir, yaratmışdır ifadəsinin mənasını belə açıqlamaq olar ki, dünyanın yaradıldığı ilk "qeyri-varlıq", "heç nə" varlığın hələ varlıq kimi reallaşmamış, ona çevrilməmiş formasının, halının varlığıdır.

Əgər belədirsə, – fikrimizcə, belə düşünmək ağlasığandır – onda Allahın dünyanı qeyri-varlıq kimi başa düşülən heçdən yaratması, var etməsi haqqında Qurani-Kərimin ayəsi də din xadimləri tərəfindən düzgün şərh edilməmişdir. Görünür, bu da sağlam düşüncəli bəzi adamların, o cümlədən elm nümayəndələrinin dindən uzaqlaşaraq ateist olmalarının səbəblərindən olmuşdur. Axı, təkallahlılığı qəbul edən dünya dinləri dünyanı vahid Allahın yaratdığını, onun nizamlılığının və qanunauyğun surətdə hərəkəti və inkişafının Allah tərəfindən əvvəlcədən və birdəfəlik müəyyən edil-

diyini qəbul edirlər. Onda, deməli, təbiətdəki saxlanma qanunları, o cümlədən müasir elmin mühüm qanunlarından olan materiya və hərəkətin (enerjinin) saxlanması və çevrilməsi qanunu da təbiətin nizamlılığını, ahəngdarlığını, qanunauyğunluğunu təmin etmək məqsədilə yaradılmışdır. Belə olduqda düşünmək tamamilə məntiqi olar ki, Allahın müəyyənləşdirdiyi varlığın saxlanması qanununu dərk edən qədim dövr filosofları heç nəyin heçdən yaranmadığını və heçə çevrilərək yox olmadığını, nəyinsə nədənsə yarandığını və yox olmayaraq nəyəsə çevrilməsi fikrini söyləmişlər.

Varlığın yaranmasına, onun heç nəyə, qeyri-varlığa münasibətinə belə baxılsa, onda ateist adlandırılan sağlam düşüncəli elm adamları varlığın heçdən yarandığını nəinki rədd etməz, onu varlığın hələlik insanlara məlum olmayan ilk halını, əsasını, həqiqi substansiyasını müasir elmə nisbətən daha elmi izahı kimi qəbul edər və bununla da dünyanın (varlığın) başlanğıcı, ilk substansiyası haqqında dini kitabların – Bibliya və Qurani-Kərimin qeyri-varlıq olan "heç" haqqında müddəalarının məhz din xadimlərinin səhv başa düşmələri, şərh etmələri üzündən təhrif etdikləri aydın olar.

* * *

Qeyd etmək lazımdır ki, təbii-elmi və fəlsəfi ədəbiyyatda çox zaman sinonimlər kimi eyni mənada işlədilən varlıq, mövcudluq anlayışları özlərinin iki – sözün dar və geniş mənalarında işlədilir.

Sözün dar mənasında varlıq (mövcudluq) obyektiv, maddi aləm – təbiət, materiya, cəmiyyət mənasında, yəni ayrıca adamların və bütövlükdə, bəşəriyyətin şüurundan xaricdə və ondan asılı olmadan mövcud olub materiyanı, onun əlaqə və münasibətlərini, atributiv xassələrini, mövcudluq formalarını, habelə ictimai həyatı da özünə daxil edən obyektiv (maddi) varlıq (reallıq) mənasında işlədilir. Bu mənada işlədilən varlıq obyektiv reallıq anlayışına uyğun gəlir və onunla şüur (subyektiv reallıq) arasında müəyyən qnoseoloji əkslik də vardır. K.Marksın aşağıdakı məlum sözləri bunu aydın göstərir: "İnsanların varlığını onların süuru müəyyən etmir, əksinə, insanların ictimai varlığı onların süurunu müəyyən edir" (20, 346). K.Marks süuru "dərk olunmuş varlıq" adlandırmışdır. Göründüyü kimi, burada şüur və varlıq yalnız bir-birlərindən fərqləndirilmək üçün deyil, hətta, qnoseoloji planda bir-birlərinə qarşı qoyulmuşlar.

Varlıq anlayışının qeyd olunan dar mənada işlədilməsini və şüurla qarşı-qarşıya qoyulmasını F. Engels tərəfindən formulə edilən fəlsəfənin əsas məsələsində də görürük: "... fəlsəfənin böyük əsas məsələsi təfəkkürün varlığa ... ruhun təbiətə münasibəti məsələsidir" (21, 395-396). Burada təfəkkür – ruh və şüur mənasında, varlıq və təbiət isə eyni – maddi varlıq mənasında işlədilmişdir. Bu sonuncu mənasında varlıq bəzən düzgün olmayaraq obyektiv reallıq olan materiya ilə eyniləşdirilir.

Varlıq anlayışının sözün dar mənasında – obyektiv, maddi varlıq kimi işlədilməsinə sonralar, sovet fəlsəfə ədəbiyyatında da rast gəlinir. Məsələn, "Fəlsəfə ensiklopediyası"nda varlıq "obyektiv aləmin, təbiətin şüurdan asılı olmadan mövcudluğu, cəmiyyətdə isə adamların maddi həyat prosesini ifadə edən fəlsəfi kateqoriya" (8, 207) kimi təyin ounur. ASE-də varlıq yenə "obyektiv aləmin, materiyanın, insanların süurundan, iradəsindən asılı olmayaraq mövcudluğunu bildirən fəlsəfi kateqoriya" adlandırılmışdır (1, 409). Sonralar varlığa hətta, mahiyyətcə materiya kateqoriyası ilə eyni olan "insan süurundan xaricdə və ondan asılı olmadan obyektiv surətdə mövcud olan reallığı göstərən fəlsəfi kateqoriya" (9, 76) kimi tərif verilmişdir.

Varlığa eyni baxışa hətta fəlsəfə üzrə dərsliklərdə də rast gəlinir. Məsələn, ali məktəblər üçün dərslik kimi buraxılan "Fəlsəfə" kitabında oxuyuruq: "Marksist fəlsəfə varlığı təbiətlə eyniləşdirərək bildirir ki, o, bizim görüş dairəmizdən kənarda açıq

məsələdir. Varlıq ... ancaq elmi, rasional biliklə və praktika ilə müəyyən oluna bilən şeydir. O, insanın onun predmetli – praktiki fəaliyyətində verilən obyektiv aləmdir (təbiət və cəmiyyətdir)" (7, 137). Belə tərifə son vaxtlar respublikamızda fəlsəfə üzrə dərslik və dərs vəsaitlərində də rast gəlinir. Məsələn, prof. Maqsud Fərhadoğlunun "Fəlsəfənin əsasları" adlı dərs vəsaitində oxuyuruq: "Sözün ən geniş mənasında, varlıq son dərəcə əhatəli reallığı, obyektiv mövcudluğu, insan süurundan asılı olmayan gerçəkliyi bildirən ən ümumi fəlsəfi kateqoriyadır" (22, 120). Göründüyü kimi, burada varlıq sözün dar mənasında, yəni maddi varlıq mənasında işlədilmişdir.

Respublikamızda son vaxtlar yazılan fəlsəfə üzrə digər dərsliklərdə də, məsələn, prof. A.Şükürovun "Fəlsəfə" dərsliyində "varlıq" anlayışı sözün dar mənasında başa düşülərək, hətta varlığa həsr olunmuş bölmə "Varlıq maddi reallıqdır" başlığı altında verilmişdir. Həmin bölmədə deyilir: "Hazırda varlıq fəlsəfi kateqoriya kim bütün şey və hadisələrin əsasında durub real mövcud olan dünyanı ifadə edir. Başqa sözlə desək, varlıq təbiətdə olan, eləcə də kosmik, həmçinin insanın özünün yaratdığı şeyləri və hadisələri əhatə edir" (27, 285).

Aydındır ki, maddi reallıq varlıq olsa da, varlıq ancaq maddi reallıq olmayıb ondan daha geniş olub maddi reallıqdan başqa mənəvi reallığı da əhatə etməklə onların cəmi, vəhdəti kimi çıxış edir, yəni sözün geniş mənasında da işlədilir. Buna görə də, marksist fəlsəfədə varlıq anlayışının ancaq sözün dar mənasında, maddi varlıq kimi işlədildiyi haqqında fikir doğru deyildir. Əslində isə marksizm-leninizm klassiklərinin əsərlərində varlıq, reallıq kateqoriyalarının sözün geniş, yəni maddi və mənəvi varlıqların vəhdətini ifadə edən, ümumiyyətlə varlıq, reallıq kimi işlədilməsinə də rast gəlinir. Məsələn, materiyaya şüura qarşı duran obyektiv reallığı ifadə edən, kateqoriya kimi tərif verən V.İ.Lenin başqa bir yerdə yazmışdır: "Əlbəttə, materiya ilə şüur arasındakı əksliyin də yalnız çox məhdud bir sahə daxilində mütləq əhəmiyyəti vardır; burada onun əhəmiyyəti yalnız nəyi birinci və nəyi ikinci götürmək kimi əsas qnoseologiya məsələsi dairəsindədir. Bu dairədən kənarda həmin əksliyin nisbiliyi şübhəsizdir" (19, 151). Həmin hüduddan kənarda materiya və şüurun hər ikisi maddi və mənəvi varlığın vəhdəti olan varlıq anlayışı ilə əhatə olunur, yəni hər ikisi vardır, mövcuddur. Buna görə də bəzən ədəbiyyatda səhv olaraq yeridilən belə əsassız fikirlə razılaşmaq olmaz ki, guya marksizm-leninizm fəlsəfəsində (XIX-XX əsrlərdə) varlıq maddi dünya ilə eyniləşdirilir (24, 177). Bu isə bir daha göstərir ki, varlıq kimi fundamental fəlsəfi anlayışdan danışarkən onun qeyd etdiyimiz geniş mənasını nəzərə almadan keçinmək olmaz. Odur ki, ədəbiyyatda mövcud olan belə bir fikirlə razılaşmaq olmaz ki, "... fəlsəfədə şüura münasibətdən kənarda varlıq anlayışı ola bilməz" (17, 44).

Qeyd etmək lazımdır ki, sözün dar mənasında, yəni maddi varlıq kimi işlədilən varlıq da bəzən iddia edildiyi kimi, heç də materiya anlayışı ilə üst-üstə düşmür, çünki yalnız özlüyündə materiya deyil, eyni zamanda onun atributları olan hərəkət, məkan və zaman, habelə əlaqə və münasibətləri də maddi olub obyektiv reallıqlar kimi mövcuddur, vardır. Buna görə, obyektiv reallıq və maddi anlayışları eyni mənalı olub bir-biri və maddi varlıq anlayışı ilə üst-üstə düşürlər. Deməli, sözün dar mənasında götürüldükdə, materiya varlıq olsa da, varlıq yalnız materiya olmayıb, eyni zamanda onun mövcudluq üsulları, əlaqə və münasibətləri, yəni bütövlükdə maddi olandır. Deməli, artıq göstərdiyimiz kimi, obyektiv reallıq (varlıq) materiya ilə deyil, maddi anlayışı ilə eyni mənalı olub bir-biri və maddi varlıq anlayışları ilə üst-üstə düşürlər (11, 152-171).

Varlıq anlayışı qeyd etdiyimiz dar mənasından başqa geniş mənasında, yəni uydurulmamış, həqiqətən mövcud olan mənasında da işlədilir. Bu mənasında varlıq mövcud olan hər şey olub, təkcə obyektiv-real, yəni maddi olanı deyil, eyni zamanda subyektiv-real, yəni ideal olanı, şüur hadisələrini – fikirləri, müxtəlif psixi halları və s.-ni də əhatə edir, çünki onların hər ikisi mövcuddur. Deməli, varlığa maddi, obyektiv reallıqdan başqa mənəvi olan, subyektiv reallıq da daxildir, yəni maddi reallıqla yanaşı ən coşqun fantaziyanın, nağılların, əsatirlərin məhsulları, hətta, xəstənin sayıqlamaları da mənəvi varlıq kimi mövcuddur. Beləliklə, varlıq yaxud onunla eyni mənalı, sinonim olan reallıq anlayışı həm maddi, həm də mənəvi olanı, yaxud obyektiv və subyektiv reallığı əhatə etməklə onların vəhdəti kimi çıxış edir. Beləliklə, bu dünyanın hər iki sahəsi – həm təbiət, maddi aləm, həm də mənəvi, şüur aləmi varlıq anlayışı ilə səciyyələndirilə bilər; Lakin onların varlıq, mövcudluq üsulları müxtəlifdir: fiziki, maddi aləm obyektiv surətdə, insandan xaricdə, onun iradəsindən və şüurundan asılı olmadan mövcuddur; psixi aləm, şüur aləmi isə subyektiv mövcud olub adamların, ayrı-ayrı fərdlərin iradəsindən və arzularından asılıdır. Bu iki növ varlığın öz aralarında necə əlaqələnməsi fəlsəfənin əsas məsələsi ilə bağlı olub, fəlsəfə tarixində ayrı-ayrı məktəblər tərəfindən müxtəlif cür həll edilmişdir.

Fəlsəfi ontologiyada mövcud olub insanın dünyada öz yerini müəyyənləşdirməsi, mövcudluğunun mahiyyətini və mənasını başa düşməsi üçün mühüm olan varlıq haqqında bəhs etdiklərimizdən aydın olur ki, mövcud olub getdikcə daha yaxşı yaşamaq uğrundakı mübarizənin gedişində insana real aləmin mürəkkəbliklərindən, rəngarəngliyindən, real hadisə və proseslərindən baş çıxarmağa imkan verən anlayışlar sistemində "varlıq" anlayışı və ona yaxın olan çox zaman sinonimlər kimi işlədilən "gerçəklik", "reallıq" anlayışları xüsusi yer tutur. Fəlsəfədə ən geniş olan varlıq anlayışının mənasını və əhəmiyyətini dərk etməkdən, onu fundamental fəlsəfi kateqoriya kimi səciyyələndirməkdən ötrü gerçəklik və reallıq anlayışlarını nəzərdən keçirmək lazımdır. Bu, ona görə lazımdır ki, proses və hadisələrin ümumi xarakteristikasının ifadəsi olmaq etibarilə varlıq anlayışının məzmunu məhz həmin anlayışlar vasitəsilə konkretləşdirilir.

Mövcudluq mənasında işlədilən gerçəklik keçmişdə, indi mövcud olan və gələcəkdə mövcud olacaq bütün şeylərin, proseslərin, hadisələrin, halların məcmusudur. Təbiətdə mövcud olan şeylər, hadisələr, proseslər, cəmiyyətdə dövlət sistemləri, siyasi təsisatlar, insanların davranışları, şəxsi həyəcanları, fikirləri, ideyaları və s. gerçəkliyin ayrı-ayrı fraqmentləridir. Gerçəkliyə daxil olan hadisələrin sürəkliyi olduqca müxtəlifdir. Buna görə də, gerçəklikdə daim yeni-yeni hadisələr meydana gəlir, qərarlaşır, mövcud və məhv olurlar.

Reallıq anlayışının gerçəklik anlayışının sinonimi kimi eyni mənada işlədildiyinə rast gəlinir. "Reallıq" ("real") və "gerçəklik" ("gerçək olan") anlayışlarının münasibətinin diqqətli təhlili və onların məzmununun müqayisəsi aydın göstərir ki, bəzən eyni mənalı kimi işlədilsələr də, onlar məzmunca müxtəlif genişliyə malik olub fərqlənirlər. Belə ki, əvvələ, gerçəklik özü iki mənada – bir "mövcud olan" ("mövcudluq") mənasında, bir də artıq həyata keçmiş, realizə olunmuş imkan mənasında işlədilir. Məsələn, M.A.Parnyuk yazır: "Gerçəklik kateqoriyasında bütün maddi dünya, şeylərin və hadisələrin bütün məcmusu və bütün mövcud olanlar deyil, yalnız müəyyən imkanların həyata keçməsi olan müəyyən şeylər əks etdirilir" (25, 117). Özünün imkan və gerçəklik kateqoriyalarının münasibəti baxımından dürüst olmayan birinci ("mövcudluq") mənasında gerçəklik "reallıq" anlayışı ilə üst-üstə düşür, yəni həm

obyektiv, həm də subyektiv reallığı əhatə edir, bu iki əksliyin dialektik vəhdəti kimi çıxış edir. Belə halda o, həm imkan şəklində olan reallığı (real imkanı), həm də imkan halından çıxaraq artıq gerçəkliyə çevrilmiş imkan mənasında reallığı əhatə edir.

Deməli, özünün daha dürüst olan ikinci mənasında, yəni artıq həyata keçmiş imkan mənasında işlədilən "gerçəklik", geniş mənasında işlədilən gerçəklik anlayışından dar məzmuna malikdir. Bu halda "reallıq" anlayışının daha geniş olduğu aydın nəzərə çarpır. Belə ki, o, özünün subyektiv qolu hələ bir yana qalsın, "obyektiv reallıq" qolu, xətti ilə "gerçəklikdən" daha geniş olub, artıq həyata keşmiş, gerçəkliyə çevrilmiş imkandan (gerçəklikdən) başqa hələ gerçəkliyə çevrilməmiş imkanı da əhatə edir. Çünki real adlandırılan imkanın özü də predmet və hadisələrin daxili təbiətindən və qanunauyğun inkişafından irəli gəldiyinə görə, insanın uydurması olmayıb obyektiv surətdə, həqiqətən mövcuddur, yəni realdır, həm də obyektiv realdır. Məsələn, virtual hissəciklər, proseslər, hissəciklərə potensial halda xas olan korpuskulyar-dalğa xassələri imkan şəklində mövcud olub, yalnız müəyyən şəraitdə realizə olunan, gerçəkliyə çevrilən obyektiv reallıqlardır.

Buradan da virtual hissəciklər realdırmı? – sualını verərkən nəzərdə tutmaq lazımdır ki, onlar obyektiv realdırlar. Lakin bu reallıq gerçəkliklə eyni mənalı reallıq olmayıb, ondan daha geniş – həm gerçəkliyi, həm də imkanı özünə daxil edən mənada ("mövcudluq", "reallıq" mənasında) realdır. Başqa sözlə, virtual hissəciklər qeyd etdiyimiz dar (həyata keçmiş imkan) mənasında gerçək olan reallıqlar deyil, imkan halında olan reallıqlardır; yalnız müəyyən şəraitdə onlar imkan halından çıxaraq gerçəkliyə çevrilirlər. Eyni ilə elementar hissəciyə potensial halda xas olan korpuskulyar və dalğa xassələri də müəyyən şəraitdə gerçəkliyə çevrilir, o, şəraitdən asılı olaraq həmin xassələrindən bu və ya başqasını, bəzən də hər ikisini aşkara çıxarır, yəni həmin xassələr imkan halından çıxaraq gerçəkliyə çevrilirlər.

"Gerçəklik" ("gerçək olan") anlayışı qeyd etdiyimizdən başqa bir də həqiqətən, real mövcud olan ("mövcudluq") mənasında işlədilir. Məsələn, "obyektiv gerçəklik", "subyektiv gerçəklik" kimi anlayışlara rast gəlinir. Bu halda gerçəklik, yuxarıda qeyd etdiyimiz kimi, özünün geniş mənasında reallıq anlayışı ilə, "obyektiv gerçəklik" və "subyektiv gerçəklik" anlayışları isə müvafiq olaraq "obyektiv reallıq" və "subyektiv reallıq" anlayışları ilə eyni mənalı olub üst-üstə düşürlər. Bəzən də "real mövcudluq" anlayışı "obyektiv reallıq" anlayışı ilə eyniləşdirilir. Halbuki "real" və "obyektiv" olanlar, qeyd etdiyimiz kimi, eyni hüquqlu, məzmunlu anlayışlar deyildir. Belə ki, yenə yuxarıda göstərdiyimiz kimi, subyektin duyğuları, anlayışları, fikirləri, düşüncələri, şüuru, bir sözlə, ideal olanlar real mövcuddurlar, lakin bu obyektiv mövcudluq (reallıq) olmayıb, subyektiv mövcudluqdur (reallıqdır).

Reallıq latınca "res" sözündən əmələ gəlib "şey", "predmet" deməkdir. Lakin "şey" anlayışı birmənalı deyildir. Həmin məfhum altında həm müəyyən məkan daxilində və zaman etibarilə mövcud olan maddi predmetlər, hadisələr, həm də onların insan beynində obyektiv aləmin subyektiv obrazları kimi mövcud olan anlayışlar, nəzəriyyələr, təsəvvürlər və s. nəzərdə tutulur. Bu halda reallıq anlayışı özünün qeyd etdiyimiz geniş mənasını kəsb edərək "mövcudluq" anlayışına keçir və obyektiv və subyektiv reallıqların vəhdəti kimi çıxış edir. Çünki mövcudluq xassəsi yalnız obyektiv (maddi) aləmin özünə deyil, habelə onun insan beynində müəyyən şəkildə inikası olan ideal formalara da aiddir. Deməli, reallıq anlayışı özünün geniş mənasında "mövcudluq" anlayışı ilə üst-üstə düşür. Bu baxımdan bina da mövcuddur, bina qavrayışı da, təyyarə də mövcuddur, təyyarə qavrayışı da, zərrəcik də mövcuddur,

maddi nöqtə də, bilyard şarı da mövcuddur, ideal şar da, materiya da mövcuddur, şüur da: çünki onların hamısı sözün geniş mənasında realdır.

Göründüyü kimi, reallıq anlayışı çox geniş olub obyektiv və subyektiv reallıqların cəmi, onların vəhdəti kimi çıxış edir. Obyektiv reallıq anlayışı insan şüurundan xaricdə və ondan asılı olmadan mövcud olan hər şeyi ifadə edir. Dünyadakı bütün şeylər, onların növləri və halları, hadisələr, proseslər – kvarklar, elementar hissəciklər, nüvə, atom, molekul, cisimlər, planetlər, ulduzlar, Qalaktika, Metaqalaktika, fiziki sahənin müxtəlif növləri, vakuum, ictimai münasibətlər və s. obyektiv reallığın ayrı-ayrı ünsürləridir.

İnsan şüurunda, insan təfəkküründə və təxəyyülündə mövcud olan gerçəklik isə subyektiv reallıqdır. Subyektiv reallıq insan fəaliyyətinin, daha doğrusu, insan beyninin məhsuludur. Beynin fəaliyyətinin məhsulu olan fikirlər, anlayışlar, mülahizələr, obrazlar, elmi və qeyri-elmi biliklər də reallıq olub, fəlsəfədə deyildiyi kimi, subyektiv reallığı təşkil edirlər. Şifahi xalq yaradıcılığında, folklorda geniş işlədilən cin, şeytan, pəri, div, əjdaha, yaxud elmi-fantastik əsərlərdə təsvir olunan müəyyən hadisələr haqqında düşüncələr obyektiv reallıqda deyil, şüurumuzda, təxəyyülümüzdə mövcud olan subyektiv reallıqdır. Obyektiv və subyektiv reallıqlar müxtəlif olsalar da, bir-birləri ilə bağlıdır. Məsələn, haqqında bilib-bilməməyimizdən asılı olmayaraq təbiətdə radioaktiv elementlər, onların təbii parçalanması sayəsində böyük miqdarda enerji ayrılması mövcuddur. Bu obyektiv reallıqdan fərqli olaraq nüvə fizikası üzrə alimin başında radioaktivlik, nüvə reaksiyaları və bu prosesdə enerji ayrılması haqqında, süni radioaktivlik, onu həyata keçirməyi mümkün edən fiziki-kimyəvi və texnoloji proseslər haqqında biliklər də olur. Bu biliklər isə insan başında subyektiv reallıq kimi mövcuddur. İnsan şüurundan xaricdə mövcud olan obyektiv reallıq və onun məhsulu kimi ancaq insan başında mövcud olan subyektiv reallıq ciddi surətdə fərqlənsələr də möhkəm vəhdətdə və əlaqədə olub bir-birlərinə qarşılıqlı təsir göstərirlər. Belə ki, subyektiv reallıq obyektiv reallıq tərəfindən törədilir və eyni zamanda onu törədən obyektiv reallığa fəal əks-təsir göstərir.

Mövcudluq üsuluna görə obyektiv reallıqdan fərqlənən subyektiv reallıq müəyyən şəkildə obyektiv reallıqla bağlıdır, yəni onun ideal inikasıdır. Lakin bu bağlılıq heç də o demək deyildir ki, subyektiv reallıqdan istifadə etməklə ondan hər hansı obyektiv, maddi reallıq yaratmaq olar. Məsələn, fikirlərdə və obrazlarda, elmi biliklərdə və bədii ideyalarda ifadə olunan subyektiv reallıqdan istifadə etməklə divar hörmək, körpü tikmək, maşın, təyyarə, kompyuter düzəltmək olmaz. Lakin fikir, obrazlar, hiss, istək, ideya insanı müəyyən istiqamətdə hərəkət etməyə, iş görməyə təhrik edə bilər. Məhz onda insan əlinə balta, mişar götürüb ağacı kəsə, yaxud müəyyən alət və dəzgahlardan istifadə etməklə maşın, kompyuter və s. düzəldə bilər. Bu, o deməkdir ki, insan şüurundan xaricdə mövcud olan obyektiv reallıq və onun məhsulu kimi ancaq insan başında mövcud olan subyektiv reallıq ciddi surətdə fərqlənsələr də ayrılmaz vəhdətdə və əlaqədə olub qarşılıqlı təsir göstərirlər. Obyektiv və subyektiv reallığın bu vəhdəti və əlaqəsi öz ifadəsini varlıq kateqoriyasında tapır. Bu vəhdətdə özünün qəlbi və ağlı, həyəcanları, ehtirasları, şəxsi arzuları, məqsədləri, səhvləri və nailiyyətləri, xeyirxahlığı və amansızlığı ilə döyüşü, fəhlə, biznesmen, ziyalı, alim, sənətkar və b. kimi fəaliyyət göstərən insan mühüm yer tutur. O, bir tərəfdən, obyektiv reallığın inkişafının məhsulu, digər tərəfdən isə subyektiv reallığın – xülyalar, kəşflər və ixtiralar, fantaziyalar aləminin yaradıcısıdır. Deməli, insan obyektiv və subyektiv reallığın kəsişdiyi, onları bir-biri ilə bağlayan nöqtə və bu mənada varlığın

mərkəzidir (29,43). Bununla da insan obyektiv və subyektiv reallığın vəhdətinin ən bariz ifadəsi kimi çıxış edir. Həm də insan sadəcə subyektiv reallığın və qismən də obyektiv reallığın ("ikinci təbiətin") yaradıcısı olmayıb xüsusi, sosial-tarixi varlıqdır. Hər bir ayrıca adam təkrarolunmaz və nadir hadisədir. Onun doğulması sevindirici möcüzə, ölümü isə faciəli itkidir. Ayrıca insan ölən olsa da, insan cinsi onun mövcudluğu və inkişafı üçün şərait olduqca ölməzdir. Hər bir insanın ölməzliyi onun fiziki, yaxud bioloji varlığından ibarət olmayıb sonrakı nəsillər üçün əhəmiyyət kəsb edən faydalı əməllərində mənən yaşamasında, informasiyaları və xüsusilə onun yüksək forması olan biliyi yaratmaq, toplamaq, hifz etmək və sonrakı nəsillərə ötürmək qabiliyyətindədir. Bir-birlərini əvəz edən insan nəsillərinin əlaqəsi, onların tarixi təcrübələrinin, biliklərinin əlaqəsi mühümdür və tarixi varlıq olan insan üçün böyük sərvətdir. Buna görə də xüsusi fəlsəfi kateqoriya, bütün mövcud olanları – obyektiv və subyektiv reallıqları əhatə edən ən geniş, universal anlayış kimi varlıq tarixi reallığı da özünə daxil edir. Tarixi reallıq insanın sosial varlığının gerçəkliyi olub onun bütün ictimai əhəmiyyətli fəaliyyətinin keçmiş, indiki və gələcək hallarını özündə birləşdirir.

Varlıq haqqında bəhs etdiklərimiz göstərir ki, fəlsəfənin fundamental problemlərindən olan varlıq haqqında təlim geniş əhatəli olub bir neçə aspektə malikdir. (28, 15-21). Onun **birinci aspekti** dünyanın məkan və zamanda sonsuz və əbədi olması ilə bağlıdır. Bu aspekt məhz varlıq haqqında fikirlər zənciri, hər biri sonrakı məsələnin qoyuluşunu doğuran suallara verilən cavablardan ibarətdir: nə mövcuddur? Dünya. Harada mövcuddur? Burada və hər yerdə. Nə müddətə mövcuddur? İndi və həmişə. Bütövlükdə dünya zamanda sonsuz olub əbədi mövcud olsa da, onu əmələ gətirən ayrı-ayrı şeylər, konkret orqanizmlər, adamlar, onların həyat fəaliyyəti sonlu və keçicidir. Problemin kökü, məğzi bundadır ki, bütöv tam kimi təbiətin keçici olmayan varlığı ayrı-ayrı şeylərin, təbiət hadisələrinin, hallarının, insan vücudlarının keçici, müvəqqəti və ötəri olan varllığının ziddiyyətli vəhdətində mövcuddur.

Dünya haqqında fəlsəfi fikrin inkişafı gedişində aşkar edildi ki, dünya özünün mövcudluğunda, varlığında yekcins olmayıb rəngarəngdir, yəni o, bütövlüdə sonsuz, qeyri-keçici və əbədi olduğu halda onun ayrı-ayrı predmetləri, halları müvəqqəti və keçicidir. Tam kimi bütövlükdə dünyanın varlığı dünyada mövcud olan ayrı-ayrı şeylərin varlığından ayrılmazdır; dünya məhz özünün mövcudluğunda, varlığında ayrılmaz vəhdət, universal bütövlük əmələ gətirir. Buradan da varlıq probleminin dünyanın vəhdəti məsələsi ilə bağlı olan ikinci aspekti irəli gəlir. Özlərinin ətraf aləmdəki şeylərlə ümumi əlaqəsini, bağlılığını açmağa meylli olan insanlar belə nəticəyə gəlmişlər ki, maddi şeylər və onların ideal məhsulları (fikirlər, ideyalar), təbiət və cəmiyyət, ayrı-ayrı fərdlar üçün ümumi olan cəhətlər onların hamısının mövcudluğu, var olmalarıdır. Beləliklə, varlıq probleminin **ikinci aspekti** bundan ibarətdir: özlərinin mövcudluq formalarına görə müxtəlif olan təbiət, insan, fikirlər, ideyalar, cəmiyyət eyni dərəcədə mövcud olub hər şeydən əvvəl, dünyanın bütöv vəhdəti üçün əsas təşkil edir. Başqa sözlə, dünyada mövcud olmuş, olan və olacaq hər şeyin varlığı dünyanın vəhdətinin ilk və zəruri şərtidir.

Dünya haqqındakı bilikləri insanları belə mühüm nəticəyə gətirir ki, ümumiyyətlə, dünya və onda mövcud olan hər şey konkret fərdlərin və adamların konkret nəsillərinin şüurundan əvvəl olmaqla müxtəlifliklərinin vəhdətində mövcuddur: bu fikirlər hər bir adamın, hər bir nəslin şüuru və fəaliyyəti üçün reallıqdır. Bu, varlığın fəlsəfi probleminin **üçüncü aspektidir**.

Varlıq problemi, onun müxtəlif aspektləri, reallığın müxtəlif növləri ilə tanış

olduqdan sonra varlıq kateqoriiyasının fəlsəfədə yeri və əhəmiyyətini açmaq olar.

Artıq qeyd etdiyimiz kimi, fəlsəfi dünyagörüşünün əsasında duran "varlıq" onun fundamental kateqoriyasıdır. Varlığın anlaşılmasındakı ilk addımlar sonrakı kateqorial təhlil üçün bir növ tramplin xidmətini görür. Həmin kateqoriyanın köməyi ilə dünyanın mövcudluğu haqqında məsələnin məzmunu açılır: a) dünya vardır və o, sonsuz və keçici olmayan tam kimi mövcuddur; b) varlığı əmələ gətirən maddi və mənəvi olan, fərdlər və cəmiyyət başqa formalarda olsalar da, eyni dərəcədə mövcuddurlar; onların bu mövcudluğu dünya vəhdətinin şərtidir; c) dünya özünün mövcudluq formalarının müxtəlifliyində şüurdan və konkret fərdlərdən, insan nəsillərindən əvvəl gələn məcmu reallığı əmələ gətirir.

Yuxarıda bəhs etdiklərimiz aydın göstərir ki, fəlsəfi varlıq kateqoriyası mürəkkəb və kompleks məzmunludur. Onun məzmunu üzərində düşünərkən müəyyən çətinliklər meydana çıxa bilər. Bu belə bir hal ilə bağlıdır ki, adi həyatda biz insanın, yaxud hər hansı şeyin necəliyini ancaq onun konkret xassələri vasitəsilə bildiyimiz halda, varlığın nə olduğunu bilmək üçün konkret və, hətta, ümumi xassələrdən sərf-nəzər etməli oluruq. İlk baxışda bu tamamilə aydın görünsə də, biz varlıq haqqında konkret şeylər haqqındakı kimi danışa və deyə bilmərik ki, varlıq böyük, yaxud kiçikdir, yaşıl yaxud qırmızıdır, acı yaxud şirindir və s. Varlıq haqqında düşüncələrimizdə biz ayrı-ayrı predmetlərdən, onların konkret əlamətlərindən, hallarından, xassələrindən, kəmiyyət xarakteristikalarından sərf-nəzər edərək onların ümumi, yəni əslində hər şeyi birləşdirən dünya əlaqəsini axtarırıq. Bu axtarışların nəticəsini "varlıq", həmçinin ona yaxın olan mövcudluq, reallıq, gerçəklik və başqa kateqoriyaların köməyilə fəlsəfə təsvir edir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə, II c. Bakı: Ensiklopediya, 1978, 592 s.
2. Алексеев П.В., Панин А.В. Философия: Учебник. М.: Проспект, 2001, 608 с.
3. Бучило Н.Ф., Чумаков А.Н. Философия: Учебное пособие. М.: Знание, 2001, с. 317.
4. Чанышев А.Н. Трактат о небытие // Вопросы философии, №3, 1991, стр. 121-127.
5. Данакари Р.А. Этническое бытие. Монография. Волгоград: ИВА. 2007, 196 с.
6. Чанышев А.Н. Трактат о небытие // Вестник Московского Университета. Серия философия. 2000, №2, с. 3-12.
7. Философия: Учебное пособие для высших учебных заведений. Ростов-на-Дону: Феникс, 1998, 573 с.
8. Философская энциклопедия. т.1. М.: Советская энциклопедия, 1960, 504 с.
9. Философский энциклопедический словарь. М.: Советская энциклопедия, 1989, 815 с.
10. Хайдеггер М. Время и бытие. "Статьи и выступления". М.: Республика, 1993, 475 с.
11. Kərimov V.M. Fəlsəfədə və təbiətşünaslıqda varlıq və materiya problemi. Bakı: "Təhsil" N.P.M. nəşriyyatı, 2003, 486 s.
12. Kərimov V.M. Qədim fəlsəfədə varlıq problemi // BDU-nun xəbərləri. Sosial-siyasi elmlər seriyası. 2007, №1, s. 118-132.
13. Kərimov V.M. Orta əsrlər fəlsəfəsində varlıq problemi // BDU-nun xəbərləri. Sosial-siyasi elmlər seriyası. 2008, №2, s. 111-121.
14. Kərimov V.M. Yeni dövr fəlsəfəsində varlıq problemi. BDU-nun xəbərləri. Sosial-siyasi elmlər seriyası. 2009, №1, s. 85-98.
15. Каган М.С. Метаморфоза бытия и небытия // Вопросы философии, 2001, №6, с. 55-62.
16. Коган Л.А. Закон сохранения Бытия // Вопросы философии, 2001, №4, с. 55-61.
17. Копнин П.В. Философские идеи В.И.Ленина и логика. М.: Наука, 1969, 483 с.
18. Готт В.С. Материальное единство мира и единство научного знания. Материалы III

Всесоюзного совещания по философским вопросам современного естесствознания. Выпуск III. М.: Наука, 1981, с.131-162.
19. Lenin V.İ. Materializm və empiriokritisizm. Bakı: Azərnəşr, 1968, 520 s.
20. Marks K., Engels F. Seçilmiş əsərləri. 2 clilddə, I c. Bakı: Azərnəşr, 1953, 674 s.
21. Marks K., Engels F. Seçilmiş əsərləri. 3 cilddə, c. 3. Bakı: Azərnəşr. 1983, 607 s.
22. Maqsud Fərhadoğlu. Fəlsəfənin əsasları. II nəşr. Bakı: Nurlan, 2002, 392 s.
23. Материалистическая диалектика как научная система. В 8-ми книгах. Книга 1. М.: МГУ, 1983, 295 с.
24. Солодухо Н.М. Бытие и небытие как предельнее основания мира // Вопросы философии, 2001, №6, с. 171-182.
25. Парнюк М.А. Принцип детерминизма в системе материалистической диалектики. М.: Наукова Думка, 1972, 356 с.
26. Спиркин А.Г. Философия. М.: Гардараки, 1999, 816 с.
27. Şükürov A. Fəlsəfə: Dərslik. Bakı: Adiloğlu, 2002, 490 s.
28. Введение в философию: Учебник. В 2-х частях. Часть 2, 2-е изд. М.: Политиздат, 1989, 639 с.
29. Философия. Основные идеи и принципы / Под. ред. А.А.Ракитова. 2-е изд. М.: Политиздат, 1990, 368 стр.

## СУЩНОСТЬ УЧЕНИЯ О БЫТИЕ

**В.М.КЕРИМОВ**

**РЕЗЮМЕ**

В статье рассматривается проблема бытия, раскрывается ее связь с понятием небытия. Исследование показывает, что они взаимосвязаны между собой и переходят друг в друга. Развивается мысль о том, что «ничто», из которого возникает «бытие» и переходит в него не является абсолютным «ничто», «не бытие», а является бытием последнего. Любое «нечто в процессе своего превращения имеет свое «бытие» и «не бытие» и существует как их единство. В современной науке понятия «не бытие» или ничто употребляется не абсолютном, а в относительном смысле, как отсутствие какого-то бытия.

В статье раскрывается широкий и узкий смысль «бытия» и «реальности», а также соотношения понятии «материя», «материальное», «существование», «действительность».

## ESSENCE OF THE DOCTRINE OF BEING

**V.M.KARIMOV**

**SUMMARY**

This article deals with the problem of being and its connection with the concept of not-being. The research shows that they are interconnected and transfer to each other. There is a developing idea that "nothing", from which "being" arises and transfers to, is not absolute "nothing" but the being of the latter. Any "something" has its "being" and "not-being" in the process of its transformation and exists as their unity. In the modern science the concepts of "not-being" and "nothing" are used not in absolute but in relative sense as a lack of any "being".

Wide and narrow senses of "being" and "reality" as well as correlation of the concepts "manner", "material", "existence" and "actuality" are revealed in the article.